

■ Zakir Abbas

# Yerdə yeri olmayan şair

Keçən əsrin 80-ci illərindən başlayaraq Kərəmətin yaradıcılığı ədəbi qəliblərə sığmadı, paslanmış qaydalara məhəl qoymadan, təkbaşına bədii istiqamətini formalaşdırdı. Şairin poetik qəhrəmanı xatirələrlə paralel olaraq ümidli gələcəklə yaşadı, qismətinə düşən ”yarımçıq tale”yilə daimi mücadilədə oldu.

Müasir ədəbi cərəyanlarda istiqamət ümumidir, konkret özünüifadə isə fərdi olmalıdır. Yazıçının fərdiyyəti onun əsərlərində öz əksini tapmalıdır. Görək, Kərəmətin poetik Qəhrəmanı (əslində, özü) kimdir, nəçidir, haradan gəlib haraya gedəndir...

Şair zamanın sözünü deyə bilmirsə onun qələmi heç vaxt doğmayacaq, ömürlük qısır qalacaq, ya da sıradan biri kimi unudulacaq. Kərəmətin Qəhrəmanı zamanla ayaqlaşmaq yollarını axtarır. Bu axtarış elə Azərbaycan ədəbiyyatının dünya çapında öz yerini tutması, gerçəkliklə əlaqə yaratması deməkdir. Şair, ümumilikdə milli ədəbiyyat bu axtarışdan kənarda dayanarsa, nəticədə özgəni deyil, yalnız özünü günahlandırmalıdır. Dünyada baş verən hadisələrin mahiyyətini dərk etmək və onu bədii ustalıqla öz xalqına çatdırmaq şairin intellekt səviyyəsindən, onun vətəndaş mövqeyindən xəbər verir.






Bu axtarışda Kərəməti qınayanlar da tapılacaq, ”nüfuzlu şəxslər” tərəfindən ciddi maneələrlə də qarşılaşacaq, nəticədə isə elə həmin adamlar onun qələbəsini öz xidməti kimi cəmiyyətə təqdim etməyə çalışacaqlar. Yalnız keçmişlə yaşayan, özünü dünya proseslərindən təcrid edən yazıçı kökdən düşmüş, sınıq-salxaq, təmir edilməsi mümkün olmayan musiqi aləti kimidir.

Bəzi şairlərdə tez-tez baş verən özünüqabartma, özünütəqdim halları əslində həmin adamın dünyagörüşünün və intellektinin zəifliyinə dəlalət edir. Qeyri təbii, düşünülmüş, uydurma personajların ədəbiyyata gətirilməsi prosesi məhz buradan başlayır. Ədəbiyyatın karikaturalaşdırılması əslində bu tip yazıçıların sadəlövh düşüncələrinin məhsuludur. Bu qəlib ədəbiyyata sığmayan Kərəmət səmimidir, təvazökardır, özünü olduğu kimi təqdim etməkdən çəkinmir, necə varsa, elədir.

Onun poetik qəhrəmanı vəfalıdır, həlimdir, vaxtı ilə əliylə əkdiyi qurumuş ağaca su verir, kəsməyə əli gəlmir.

*...Açıldı sabah, əlində balta,*
*yeridi quruyan ağaca sarı,*
*elə yeriyirdi ki,*
*axşama çatardı on addım yolu,*
*gözündən yaş damcılayırdı qocanın.*

Onun qəhrəmanı kövrəkdir, canıyanandır. Talesiz birinin dərdinə şərik çıxanda təkcə gözləriylə deyil, sözləriylə ağlayır. Kərəmətin qəhrəmanı çox şey istəmir ki, üzəvari deyil, ürəkdən gülmək, sürünmək deyil, uçmaq istəyir, qısası, qadam kimi yaşamaq istəyir. Onun qəhrəmanı hələ də gah elçi daşının üstündə oturub 40 ilin o tayında qalan Kərəməti səsləyir, gah da küfranlıq edib haqqın varlığına şəkk gətirir, yerə enməsiylə, varlığına inanmaq istəyir. O, sevgi nədir, bilməyənə qədər, məsum uşaq diliylə ”çıqqana” sevir. Onun qəhrəmanının küsməyi də qəribədir, Adəm oğlu adamdan küsəndə itəpişiyə, lap ağaca meylini sala bilir. Qəhrəmanın xarakteri sadə olduğu qədər də mürəkkəbdir. Sevdiciyini görmək bəhanəsi ilə bu dünyaya gəldiyini dilinə gətirir, eşqdən başqa hər şey keçəridi onunçun. Görün Şeytanəsinə nə deyir, ”Nə mən yoruldum tərk olunub getməkdən, nə sən yoruldun ağ yaylıq yelləməkdən”. Onun qəhrəmanının hərdəmxəyallığı təcrübəsiz, sadəlövh adamı çaşdıra da bilər... Adəm övladıdır də...

Hətta onun yaddaşı illərlə qayğısına qaldığı dostunun dönüklüyündən xəcalət çəkir. İnsafən dilinin şirinliyi də var ha ...

”...Mənə elə baxma, yağış gözlüm, buludlarımız toqquşsun ikimiz bir yağış olaq”.

Dünyanı vərəvurd edən, yoxuşlu yolların yorğunu olan müdrik qəhrəman bir hovur dincəlmək, özünə, Şeytanəsinə, şair olaraq oxucusuna bir qədər fəlsəfi ovqatda, poetik dillə hesabat verməyi də unutmur.

*... Ayağımdan yolları,*
*əlimdən əlləri çırpdım.*
*ömrümü toz basmışdı,*
*çıxarıb aşınan ömrü*
*çırpına-çırpına çırpdım.*

*Sağ əlimtək dəliqanlı,*
*Sol əlim kimi fağıram.*
*Həyata həyat içindən*
*Çox-çox uzaqdan baxıram.*

Fantaziya səmada qanad çalan, göyün havasız qatında süzən anlayış deyildir. Onun təcrübəyə, yaşantıya əsaslanan kökü var. Bu belədir, lakin biz çox zaman öz təəssüratlarımızın mahiyyətini dərk etmirik. Buna iki səbəb var. Onlardan biri budur ki, bizim təəssüratlarımız yarandığı anda sıxışdırılaraq aradan çıxarılıb, ya da unudulması lazım gələn yerdə gizlədilib.

Bu gizlini tapmaq şairlərin işidi!

14 dekabr 2019

WWW.KASPI.AZ